# Aşıq Alının aranıb-arınan şeirləri

**Gələn il Haqq Aşığı Alının 225 yaşı tamam olacaq. Poeziyanın, aşıq ədəbiyyatının pərvanələri onu zirvə şairi kimi tanıyır, gəraylı, qoşma, təcnis və digər janrlarda yazdığı şeirlərini sevə-sevə oxuyurlar.**



Aşıq Alının yaradıcılığı indiyədək geniş tədqiq edilib, haqqında yazılan, eləcə də seçmə şeirlərindən ibarət olan neçə-neçə kitab çıxıb. Bunlardan biri də 2020-ci ildə araşdırmaçı şair-publisist İlham Qəhrəmanın müxtəlif mənbələrdən onun şeirlərini toplayıb tərtib etdiyi “Nə qaldı” kitabıdır. 500 nüsxə tirajla çap olunmuş həmin kitab əvvəlkilərdən cinasların daha düzgün qurulması və hər bir çətin cinasa ətək şərhinin verilməsi ilə seçilir. Təsadüfi deyil ki, az vaxtda satılan “Nə qaldı”dan əldə arxiv üçün cəmi bir neçə nüsxə qalıb.

Bizimlə söhbətində İlham Qəhrəman bildirdi ki, eyni zamanda, Haqq Aşığının qohumları ona etibar edərək, əldə-ovucda saxladıqları şeirlərini (əsasən təcnisləri) vermişdilər. 400 səhifəlik kitab aşıq şeirinin düzülüş ənənəsinə uyğun olan ardıcıllıqla – ustadnamələrlə başlayıb, divani, qıfılbənd və bağlamalarla – tamamlanırdı. Kitaba sonda “Sözlük” də əlavə edilib ki, oxucu çətin anlaşılan sözləri, dini-mifoloji məfhumları, ərəb və fars tərkibli ifadələrin mənasını öyrənmək üçün uzağa getməsin.

**İlham Qəhrəmanın daha sonra dedikləri:**

– Kitaba “Könül işi” adlı geniş ön söz də gedib. Orada yazmışam: “Aşığın anası Fatma xanıma həsr etdiyi şeirdən gəlib əlimizə çatan bir bu sağır bənd qalıb:

**Övladın qəhrinə ana dayanar,**
**Çəksə də ətəyin ha yana, yana.**
**Özgə gələr, ağız ağlar yan keçər,**
**Ana candan ağlar ha yana-yana.**

Amma bir məclisdə Göyçənin Ardanış kəndindən olan Aqil Kərimov mənə dedi ki, bəs, sən ön sözündə Alının anasına həsr etdiyi şeirin bir bəndini vermisən. Qeyd edim ki, o sağır bənd Aşıq Alının qohumu şair Telman Hüseynin dilindən yazılmışdı – mən şeiri bütöv əzbər bilirəm.

Aqil müəllimin bu xəbəri məni çox sevindirdi. Telefonu açıb onun söylədiyi həmin dodaqdəyməz təcnisi səs yaddaşına köçürdüm. Şeir tam olaraq belədir:

### HA YANA, YANA

**Övladın qəhrinə ana dayanar,**
**Çəksə də ətəyin ha yana, yana.**
**Özgə gələr ağız ağlar yan keçər,**
**Ana candan ağlar ha yana-yana.**

**Ata-ana kainatla yarıdı,**
**Səxasından yarananlar yarıdı,**
**Naqis canan yaxşı günün yarıdı,**
**Analar hər anı hayana yana!**

**Ata şahdı – tanı, Alı, a nadan,**
**Atasansa, nə ata, nə ana dan.**
**Canda nəsə keçir ata-anadan,**
**Atalardı irsə hayan, ay ana.**

Bu görüşdən sonra məndə belə bir qənaət hasil oldu ki, kitab bir də çap olunmalıdır. Odur ki, yenidən gümanım gələn mənbələrə nəzər etdim. Və bir gün “Dədə Ələsgər Ədəbi Məclisi”nin təşkil etdiyi tədbirdə daha bir xoş təsadüf oldu. Bir nəfər Məclisin rəhbəri, Aşıq Ələsgərin nəticəsi Xətai müəllimə “Azərbaycan ədəbiyyatı inciləri” adlı kitab bağışladı. Tərtibçisi Elxan Məmmədli olan kitabı xahişlə Xətai müəllimdən aldım ki, baxıb qaytararam. Evə gəlib kitabı vərəqləyəndə məlum oldu ki, Aşıq Alı Qızılvənglinin adına verilmiş 2 təcnis bizim tərtib etdiyimiz kitaba düşməyib. Həmin təcnislər bunlardır:

### CAN CANDAN AYRI

**Eşqin fəraqından cismim kül oldu,**
**Əzabı hiss etməz can candan ayrı.**
**Şəmsi qiyafəndən təcrid eyləmə,**
**Zalım, yaşayarmı can candan ayrı?!**

**Dəhşət olar bir də alsa yara nar,**
**Üz baxçandan peşkəş eylə yara nar,**
**Qiyamətlər qopar, məhşər yaranar,**
**Həmgiryan yaşasa, can candan ayrı.**

**Alı piran oldu şahanə qaldı,**
**Bir kəfəndən qeyri şaha nə qaldı?!**
**Heyif ki, bilmirsən, şaha, nə qaldı,**
**Ucbatından düşdü, can, candan ayrı.**

### AY ATA MƏNİ

**Pərvanə yanmasa naləsi kəsməz,**
**Yar firqəti oda ay ata məni.**
**Qüdrətimi rüsxətində taparam,**
**Rüsxət ver, suvar et ay ata məni.**

**Saxlayar mizanda qal, ayar yarı,**
**Çox salıbdı qeyli-qala yar yarı.**
**Yar firqəti oda qalayar yarı,**
**Salma nəzərindən, ay ata, məni.**

**İbtidadan peyman etdim qal andı,**
**İqbal yatdı qəm-qəm üstə qalandı,**
**Güman etmə Alı Türkdə qalandı,**
**And vermə Qurana, ayata məni.**

İlham Qəhrəmanın dediyinə görə, o, bu xəbəri Aşıq Alının bacısı Pəri xanımın vaxtilə Vediyə gəlin köçən nəvəsi Şəkər xanımın 1948-ci ildə Bərdəyə köçürülən nəvəsi şair Telman Hüseynə çatdırıb. Telman Hüseyn xəbərdən çox sevinib və deyib ki, “Nə qaldı” kitabı çap olunandan sonra o da Alının bir təcnisini tapıb...

**(ardı var)**

*Hazırladı:*
*Əli NƏCƏFXANLI*
*XQ*